**Səfir Vada Cüniçinin Tokio 2020 Azərbaycan milli yığma komandasının rəsmi idman geyimi nümayişi mərasimində iştirakı**

13 iyul tarixində səfir Vada Cüniçi Azərbaycan Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə keçirilmiş Azərbaycan yığma komandasının rəsmi idman geyimi dəstinin təqdimatı mərasimində iştirak etmişdir. Tədbir Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında baş tutmuşdur.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti cənab Çingiz Hüseynzadə, Gənclər və İdman Nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev iştirak edərək, yarışlarda Azərbaycanı təmsil edəcək idmançılarına uğurlar arzu etmişlər.

Səfir Vada Cüniçi isə yarışların ev sahibi ölkəsi- Yaponiya olaraq Azərbaycan milli yığma komandasının 44 nəfər idmançısını qəbul etməkdən məmnun olduğunu söyləyərək, Azərbaycan milli yığma komandasının Oyunlarda uğurla iştirak edəcəkləri ilə bağlı inamını bildirmişdir.

Eyni zamanda,  yapon mədəniyyəti və Yaponiyasevərlər qrupu "yapon.az"-ın tələbələrinin ifasında gözəl yapon rəqsi də nümayiş olunmuşdur.










